# Tibbi sosial işin mahiyyəti

**Fidan Alışova**
*Azərbaycan Universiteti*
**E-mail:** fidan.alisova@ mail.ru

**Rəyçilər:** h.ü.e.d., prof. M.N. Əliyev,
i.e.ü.f.d., dos.A.A. Musayeva

**Açar sözlər:** tibbi sosial iş, səhiyyə, xəstə
**Ключевые слова:** медико-социальная работа, здравоохранение, больной
**Key words:** medical social work, public health, sick

Sosial iş riskli mühitlərdə, fərqli psixo-sosial risklərlə qarşı-qarşıya olan klient sistemlərilə çalışan və müdaxilə etmək səlahiyyəti olan sahələrdən biridir. Sosial iş peşə olaraq diqqətini "İnsan mühitdə" olaraq müəyyənləşdirmişdir. Sosial iş bir sahə kimi fərdlərin həyat dövründə özlərinin idarə edə bilmədikləri problemlərin həll edilməsində, optimal sosial funksionallığı inkişaf etdirmədə kömək edən, bu problemlərlə bağlı olan resurslardan yararlanaraq eyni zamanda peşənin diqqət mərkəzində olan risk qruplarına yönəlmiş sosial siyasətlərə də mühüm töhvəsini verir[2].

Sosial işin fərqli praktik sahələrində işləyən sosial işçilər zaman keçdikcə fərqli xüsusiyyətləri olan müxtəlif risk faktorlarına malik və qarışıq problemləri olan klientlərlə işləyirlər [3].

Sosial iş özü bir çox sahələrlə prinsip və məqsədcə yaxındır. Həmçinin səhiyyə və sosial işin prinsip və məqsədlərinin ortaq olması və praktik sahələrinin iç-içə olması ilə də bir-birinə çox yaxındılar. Səhiyyənin əsasında duran sosial tibb yanaşmasına görə tibb eyni zamanda sosial elm sahəsidir. Digər tərəfdən əsas səhiyyə xidmətləri yanaşmasına görə sosial iş eyni zamanda sağlamlığı qoruyan, səhiyyə problemlərinin qarşısını alan işlərdir. Bu mənada səhiyyə və sosial iş bir-birinin içindədir. Tibbi sosial iş isə sosial işin birbaşa tibbin içində həyata keçirilməsi baxımından daha çox bir-birilə təmasda olduğu sahədir [1].

Sığınacaq axtaran şəxslər, təcrid olma və damğalanmaya məruz qalan xəstələr, travma yaşayanlar, evsizlər kimi müdafiəsiz qruplara istiqamətlənmiş gücləndirmə çalışmaları və qadına yönəlmiş zorakılıq, uşaq istismarı, zərərli maddə istifadəsi kimi sosial müdaxiləyə ehtiyac duyan səhiyyə problemləri, sosial siyasət və ətraf mühit siyasətləri kimi problemlərə istiqamətlənmiş müvəkkillik işi kimi bir çox ortaq sahələri vardır [4, s. 48].

Tibbi sosial iş özündə ictimai səhiyyəni, sağlam davranışı, onkologiya, nevroloji və paliativ qayğı kimi çoxsaylı alt sahələri ehtiva edir. Tibbi sosial iş müalicə üçün səhiyyə müəssisələrinə müraciət edən fərdlərin xəstəlikdən əvvəl və sonra həyatında vacib rol oynayan psixo-sosial və iqtisadi faktorların dəyərləndirilməsi, mümkün risklərin, ehtiyacların və dəstək üçün mənbələrin müəyyənləşdirilərək xəstənin optimal sosial funksionallığının yenidən qazanılmasında peşəkar bir sosial işçi tərəfindən həyata keçirilən planlı peşə müdaxilə formalarını əhatə edən peşə sahəsidir. Səhiyyə müəssisələrində işləyən peşəkar sosial işçilər ilk öncə xəstələrin psixo-sosial ehtiyaclarını qiymətləndirir və müalicədə iştirak edən komandanın bir üzvü olaraq digər səhiyyə işçilərinə xəstələrin psixo-sosial ehtiyaclarını və bu ehtiyacların müalicəyə mənfi təsirlərini çatdırır [4, s. 4].

Tibbi sosial işin ümumilikdə məqsədi xəstə və ailəsinin xəstəliyə və müalicəyə

uyğunlaşmasına mənfi təsir göstərən psixo-sosial və iqtisadi faktorların təsirlərinin minimum səviyyəyə endirilməsi və ya qarşısının alınmasıdır.

Tibbi sosial iş xəstəlikdən əvvəl xəstəliyə səbəb olan, müəyyən edilmiş xəstəliklə birlikdə gələn, müalicə prosesində xəstə və ailəsinə müəyyən dərəcələrdə təsir göstərən, müalicəyə uyğunlaşmanı və motivasiyanı pozan, qarışıq hisslərin yaranmasına səbəb olan, həyatında yenidən tənzimlənməyə ehtiyac duyan psixo-sosial və iqtisadi problemlərə dair həyata keçirilən peşəkar sosial iş müdaxilələrini özündə birləşdirir [4, s. 10].

Həssas qruplardan olan insanlarla işləyərkən sosial işçinin digər bir əhəmiyyətli rolu da keys menecer roludur.

Sosial işdə keys menecmentin əsas məqsədi klientin müxtəlif ehtiyaclarının uyğun xidmətlər təmin edilərək mümkün olan ən təsirli və lazımi miqdarda qarşılanması üçün klientin sosial funksionallığını maksimum səviyyəyə çatdırmaqdır (Ashman, 1999). Xəstəxanada tibbi müalicə müddətində sosial işçi klientin və ailəsinin ehtiyaclarını qiymətləndirir. Xəstənin ya da ailəsinin ehtiyaclarının qarşılanması prosesində xidmətləri tənzimləmə, koordinasiya etmə, izləmə, yenidən qiymətləndirmə və ehtiyac olduqda müdafiə etmək kimi strategiyalar istifadə edir [5]. Tibbdə bu müvəkkilliyin məqsədi xəstənin ya da digər ailə üzvlərinin xidmətlərdən etibarlı şəkildə faydalanmalarını təmin etməkdir. Sosial iş fərdlərin sağlamlıq və rifahını artırmaq üçün sosial dəyişimi, insan münasibətlərində problem həll etməyi, fərdlərin güclənməsini və müstəqil olmalarını dəstəkləyən bir peşədir. Buna görə də vacib peşə rollarından biri də müvəkkillikdir. Müvəkkillik sosial işin ümumi müdaxilə modelində tətbiqi strategiyadır (Ashman 1999). Bu rol sosial işçinin işlədiyi fərddə qərarlaşdırılmış hədəf dəyişikliyin reallaşmasını təmin edəcək ən effektiv yolların müəyyənləşdirilərək həyata keçirilməsi deməkdir. Müvəkkillik müalicə prosesində fərdin yanında tərəfkeş olma mənasını verir. Tibbdə bu müvəkkilliyin məqsədi xəstənin ya da digər ailə üzvlərinin xidmətlərdən etibarlı şəkildə faydalanmalarını təmin etməkdir.

Sosial işçilər tibbi müalicə qrupunun vacib bir üzvüdür. Yerinə yetirdiyi peşə rolları və vəzifələri ümumən aşağıdakı kimi müəyyənləşdirilə bilər:

- Xəstənin və ailəsinin xəstəlikdən əvvəl, xəstəlik zamanı və sonrasında dəyişən ailədaxili münasibətlərini, xəstənin müalicəyə uyğunlaşmasını, qarşılaşılan problemlərə həll yolu tapma bacarıqlarını, yeni yaranan halların öhdəsindən gəlmə üsullarını, güclü tərəflərini və sosial xidmətlərə olan ehtiyaclarını qiymətləndirir.
- Qiymətləndirmə prosesində tibbi müalicə komandasında olan digər tibbi personalları ilə görüşərək xəstə və ailəsi haqqında məlumat alır və qiymətləndirmələrini, qərarlarını və təkliflərini müalicə qrupu ilə bölüşür.
- Müalicə prosesində müalicəyə uyğunlaşma prosesinə mənfi təsir göstərən, çətinləşdirən, tibbi personalla əlaqələrinə, münasibətlərinə mənfi təsir göstərən faktorların aydınlaşdırılması, müəyyənləşdirilməsi, anlaşılması və həll edilməsində mühüm bir rolu öhdəsinə götürə bilər.
- Anidən ortaya çıxan və müalicə tələb edən tibbi problemlərin kəskin dövründə müalicə prosesində xəstə və ailəyə emosional dəstək göstərər, bu dövrü asanlaşdırmaq kimi rolları yerinə yetirər.
- İstismar, tərk edilmə, ailədaxili zorakılıq, müxtəlif şəkillərdə risk altında olma, pis vərdişlərinin olması kimi müxtəlif risk hallarında lazım olam müdaxilələri edərək aidiyatı müvafiq məhkəmə və sosial xidmət müəssisələri ilə əməkdaşlıq və koordinasiya etməni həyata keçirmək.
- Xəstə və ailəsinin xeyrinə ictimai resursların istifadə edilməsində və faydalanmasında

yardım etmək.

➢ Xəstənin ev mühitinin qiymətləndirilməsi, yenidən tənzimlənməsinə ehtiyac olduğu hallarda, xəstəxanadan çıxma prosesinin planlanması. Riskli halların müəyyənləşdirilməsi üçün evlərə ziyarətlər edilməsi, izlənməsi, ailə üzvlərinin uyğunlaşma prosesi ilə işləmə, xəstənin müalicəyə uyğunlaşmasına mane olan amillərin aradan qaldıraraq gücləndirilməsi kimi müdaxilələri həyata keçirir.

➢ Xəstənin həyatının son dövrlərində arzuladığı ən yaxşı şəkildə keçirə bilməsinin təmin edilməsi, qərar vermə prosesinin dəstəklənməsi, yas dövrünün öhdəsindən gəl ailə üzvlərinin bacarıqlarını gücləndirilməsi, bu prosesin asanlaşdırılması kimi rolları yerinə yetirir.

➢ Xəstəliklə birlikdə yaranan işinin itirilməsi, Əlilliyə görə pensiyaya çıxma, sosial yardımlardan yararlanma, digər ailə üzvlərinin iş tapmaqla bağlı prosesləri izlənməsi və dəstəklənməsi istiqamətində işləri idarə etmək [4 ,s.12].

Xəstəxana mühitində sosial işçinin tibbin ixtisaslaşmış birliklərində müalicə olunan və izlənilən xəstələrin daha spesifik problemlərinə yönəlmiş problem həll etmə məqsədilə sosial iş müdaxilələrilə bağlı peşə rol və vəzifələri də vardır.

Bütün bu rolları sosial işçilər 4 mərhələdə həyata keçirirlər:

1. Tanış olma və ilkin qiymətləndirmə
2. Planlama
3. Planı həyata keçirmə
4. Monitorinq, yekunlaşdırma və izləmə [1]

Yuxarıdakıları ümumiləşdirərək deyə bilərik ki, tibbi sosial iş səhiyyə və sosial işin ortaq dəyər və prinsiplərinə əsaslanaraq həyata keçirilən sosial işin bir qoludur. Bu prinsip və dəyərlər sosial işçinin bir neçə mərhələdə müvafiq rolları tamamlamaqla reallaşdırılır.

**Məqalənin aktuallığı.** İnsanlarda yaranan müxtəlif xəstəliklər onların iqtisadi, psixo-sosial vəziyyətinə ciddi təsir göstərir. Ona görə də hal-hazırda respublikamızda bu sahəyə xüsusi diqqət göstərilməli olduğunu və bu mövzuya az müraciət edildiyini nəzərə alsaq, məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə sosial işçilərin rolları və peşə vəzifələri, eləcə də yerinə yetiriləcək bu işlərin mərhələlərinin geniş şərhi verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də tibb müəssisələrində çalışan sosial işçilər və praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Duyan.V. "Hastaların Karşılaştığı Sorunlar ve Çözümleri Odağında Tıbbi Sosyal Hizmet" C.Ü. Tıp Fakültesi Dergisi yıl, 2003.

2. Kut.S. Sosyal Hizmet Eğitiminde 22 Yıl. Sosyal Hizmetler Yüksekokulu Dergisi 1(1): 1983.

3. Özbesler. C. Değişen Müracaatçı Profilleri ve Sosyal Hizmet Eğitiminin Gereksinimleri. 21.yüzyılda Sosyal Hizmetler Nereye. 7.Ulusal Sosyal Hizmet Kongresi. 15-16 Nisan Ankara Üniversitesi Avrupa Toplulukları Araştırma ve Uygulama Merkezi. Ankara: 2011.

4. Özden. S.A., Özcan E. Tıbbi Sosyal Hizmet. Ankara: Özgür Web Ofset Matbaaçılık San. ve Ltd. Şti. 2017.

5. Ashman K., Karen, Grafton H., Hull Jr. Understanding Generalist Practice. Second Edition. Nelson-Hall Publishers/ Chicago, 1999.

**Ф. Алышова**

## Сущность медико-социальной работы


## Резюме

Медико-социальная работа — это профессиональная сфера, позволяющая минимизировать или предотвратить воздействие психосоциальных и экономических факторов, возникающих при определенной болезни, и в определенной степени затрагивающих пациента и его / ее семью. Вся работа выполняется путем выполнения различных ролей и с использованием различных методов.


**F. Alishova**

## The essence of medical social work


## Summary

Medical social work is a professional field to minimize or prevent the effects of psycho-social and economic factors coming with certain illness, and affecting the patient and his / her family on a certain extent. All the work is accomplished by performing distinct roles and using different methods.


**Redaksiyaya daxil olub:** 22.02.2019